Goshgarova N.R.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.23-33
UDC: 34: 343.2/.7

# Concept of violent crimes against life and health of women

**Abstract:** In article the concept of violent crimes against life and health of women is analyzed. On a basis a research, violent crimes against life and health of women are defined by the author as the crimes committed against life and health of women, committed with drawing physical tortures, damage to their physical and mental health or threat such damage and also the criminal activity wounding the dignity of the person or stirring implementation of a social role by it.

**Keywords:** violent crimes, violence against women, motivation of crimes against women, gender violence, crimes against the person, crimes against life and health, Vienna Declaration, Beijing Declaration, "Istanbul Convention".

## References

1. Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2020. - 772 p. (in Azerbaijani).
2. Housing Code of the Republic of Azerbaijan. Available at: https://www.e-ganun.az (in Azerbaijani).
3. UN Convention on the Elimination of All Forms of Discrimination against Women. Available at: http://www.scfwca.gov.az (in Azerbaijani).
4. Alasgarova G.R. The problem of combating domestic violence in international and domestic law: Thesis Abstract of PhD in Law Diss. Baku, 2016, 30 p. (in Azerbaijani).
5. Alasgarova G.R. Identification of subjects to which domestic violence is attributed and its historical aspects / Current issues of forensics, criminology and criminology. Collection of scientific works. No. 59, Baku, 2013, p. 224-228 (in Azerbaijani).
6. On preventing and combating violence against women and domestic violence, also known as the Istanbul Convention. Available at: https://www.coe.int.
7. Law of the Republic of Azerbaijan "On prevention of domestic violence". Available at: http://e-ganun.az/framework/20131 (in Azerbaijani).
8. Mirzazade R. Women's rights in laws / Actual problems of the state and law-making in the Republic of Azerbaijan during the transitional period. Collection of scientific articles. 15th edition. Baku, 2006, p. 69-70 (in Azerbaijani).
9. Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan dated March 3, 2005 on judicial practice in cases of theft, robbery and robbery. Available at: http://supremecourt.gov.az/post/view/159 (in Azerbaijani).
10. Bandg S., Frost S. Women's Rights-Human Rights: Art. Director of the Center for Global female leadership (USA) and Ph.D. Ramcher.un-ta. Nezavisimaya Gazeta, 1998, November 13, No. 14, p.15 (in Russian).

♦ **Goshgarova Narmin Rabit** - Head of the library of the Main legislative department of the Ministry of Justice of the Republic of Azerbaijan, junior judicial adviser (Azerbaijan). E-mail: narmin.qoshqarova@justice.gov.az

11. Gaukhman L.D. Violence as a means of committing a crime. Moscow, 1974 (in Russian).

12. Gaukhman L.D. Problems of the criminal law struggle against violent crimes in the USSR. - Saratov, 1981 (in Russian).

13. Dolgova A.I. Methods of studying the territorial differences of crimes and their causes: Proc. allowance. Moscow, NORMA Publ., 1989, 346 p. (in Russian).

14. Levertova P.A. Responsibility for mental violence according to Soviet criminal law: Abstract of the thesis of Doctor of Law Dis… Omsk, 1978 (in Russian).

15. Nugaeva N.G. International and domestic protection of women's rights. Kazan, 2003 (in Russian).

16. Prevention of family and domestic offenses / ed. by F. Lopushansky. Moscow, 1989 (in Russian).

17. Andrew Fagan. The Atlas of Human Rights. Myriad Editions. First Edition, p.41-42, 2010 4.

18. Declaration on the Elimination of Violence against Women Proclaimed by General Assembly resolution 48/104 of 20 December 1993. The General Assembly // https://www.un.org

19. Report of the Fourth World Conference on Women. Beijing, 4-15 September 1995. United Nations – New York, 1996, 218 p.

20. Richard L. Davis. Domestic violence: intervention, prevention, policies and solutions. Taylor & Francis Group, LLC, p.171-177, 200

**Qoşqarova N.R.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.23-33**
**UOT: 34: 343.2/.7**

## Qadınların həyat və sağlamlığına qarşı zorakılıq cinayətlərinin anlayışı

**Xülasə:** Məqalədə qadınların həyat və sağlamlığına qarşı zorakılıq cinayətlərinin anlayışı təhlil edilir. Tədqiqatın əsasını qadınların həyatı və sağlamlığı əleyhinə, fiziki işgəncələr verməklə, onların fiziki və psixi sağlamlığına zərər vurmaqla və ya belə zərər vurmaqla hədələməklə törədilmiş cinayətlərin araşdırılması təşkil edir. Məqalədə həmçinin şəxsin ləyaqətini alçaldan və ya onun sosial rolunun həyata keçirilməsinə mane olan cinayətlər müəllif tərəfindən qadınların həyat və sağlamlığına qarşı zorakı cinayətlər kimi müəyyən edilir.

**Açar sözlər**: zorakı cinayətlər; qadınlara qarşı zorakılıq; qadınlara qarşı cinayətlərin motivasiyası; gender zorakılığı; şəxsiyyət əleyhinə olan cinayətlər; həyat və sağlamlıq əleyhinə olan cinayətlər; Vyana Bəyannaməsi; Pekin Bəyyannaməsi; "İstanbul Konvensiyası".

Cinayət qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilən sosial dəyərləri və ictimai münasibətləri müdafiə altına alır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 2-ci maddəsinə əsasən, cinayət qanununun vəzifələri sülhü və bəşəriyyətin

♦ **Qoşqarova Nərmin Rabit qızı** - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin kitabxana müdiri, kiçik ədliyyə müşaviri (Azərbaycan). E-mail: narmin.qoshqarova@justice.gov.az

təhlükəsizliyini təmin etmək, insan və vətəndaş hüqüq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaq, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir [1].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində mühafizə olunan dəyərlər sistemində insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına xüsusi diqqət yetirilmiş, insanın həyat və sağlamlığına qəsd edən cinayətlər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsində Sülh və insanlıq əleyhinə olan cinayətlərdən sonrakı bölmədə yerləşdirilmişdir. Bu, dövlətin cinayət hüquq siyasətində şəxsiyyətin təhlükəsizliyinin, onun həyatının mühafizəsinin prioritet təşkil etməsinin göstəricisidir.

Xüsusi olaraq qeyd edək ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin XVIII fəsli "Həyat və sağlamlıq əleyhinə cinayətlər" adlanır. Bu fəsildə – qəsdən adam öldürmə, ehtiyatsızlıqdan adam öldürmə, qəsdən sağlamlığa zərər vurma, əzab vermə, evtanaziya, insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə, zöhrəvi xəstəlikləri yayma və s. bu kimi cinayətlər təsbit olunmuşdur.

Cinayət hüququ üzrə şəxsiyyət əleyhinə olan cinayətlər dedikdə, ilk növbədə vətəndaşların həyatına, sağlamlığına, azadlığına, şərəf və ləyaqətinə və sair bu kimi şəxsi nemətlərə qəsd edən və bilavasitə cinayət qanunvericiliyində ictimai təhlükəli əməllər nəzərdə tutulur. Bir qayda olaraq şəxsiyyət əleyhinə törədilən cinayətlər zamanı təzahür edən amillərdən biri – zorakılıq çıxış edir.

Şəxsiyyətə qarşı zorakılıq, başqa şəxsin iradəsinə qarşı yönəlmiş ictimai təhlükəli, hüquqazidd təsirdir; bu zaman onun həyatına təhlükə yaranır, sağlamlığına müxtəlif ağırlıq dərəcəsində zərər yetirilir, həmçinin konstitusion və digər hüquq və azadlıqları pozulur. Yəni bu zaman cinayətin obyektinin bilavasitə insan olduğu cinayət əməlləri – adam öldürmə, sağlamlığa ağır zərər yetirmə, əzab vermə, zorlama, adam oğurluğu, quldurluq, girov götürmə və s. kimi cinayətlərdən danışılarkən bu əməllərin, bir qayda olaraq, zor tətbiq etmə ilə birləşdiyi nəzərə alınır.

Zorakı cinayətlər zorakılıq və qüvvə tətbiq etmə hədəsi ilə müşaiyət olunan cinayət olaraq nəzərdən keçirilir və qəsdin obyekti, cinayətkarın hərəkət üsulu və təqsirin növü kimi cinayət-hüquq kriteriyaları əsasında müəyyənləşdirilir [11, s. 18-194; 12, s. 43; 14, s. 3].

Ümumi mənada zorakılıq dedikdə, şəxsin başqasının hüquq və azadlıqlarını məhdudlaşdıran hər hansı formada qəsdən həyata keçirdiyi əməl başa düşülür.

Zorakı cinayətkarlıq fiziki gücün tətbiqi və ya bu gücün tətbiqi hədəsi ilə törədilən cinayətlərdir. Burada bilavasitə məqsəd şəxsi həyatdan məhrum etmək, və ya iradəsinin ziddinə olaraq onun sağlamlığına, fiziki azadlığına, bədən (cinsi) toxunumazlığına zərər vurmaqdan ibarətdir.

Zorakı cinayətləri birləşdirən ümumi məqam şəxs üzərində fiziki və ya pisixi zor tətbiq etmə və ya belə zorakılığı tətbiq etmə hədəsidir.

A.İ.Dolqovanın fikrincə, bu cinayətlərin törədilməsində zorakılıq sadəcə kriminal məqsədə çatma deyil, motivasiyanın elementidir. Bu əsaslar üzrə tamah və ya siyasi məqsədlərin əldə edilməsi üçün zorakı soyğun, quldurluq, hədə qorxu ilə tələb etmə və zorakılığın vasitə kimi istifadə edildiyi bir sıra cinayətlər həmin cinayətlər sırasına daxil edilmir [13, s. 92].

Hesab edirik ki, qeyd edilən fikirlə razılaşmaq çətindir. Bu fikrin qəbul edilməsi tərkibində zorakılıq elementi olan bütün cinayətlərin zorakı cinayətlərə aid edilməsinə və onların dairəsinin qeyri-müəyyən dərəcədə şişməsinə gətirib çıxara bilər. Buna görə də fikrimizcə, zorakı cinayətlər dedikcə, zorakılığın daha təhlükəli şəkildə təzahür etdiyi həyat və sağlamlıq əleyhinə törədilən

cinayətlər başa düşülməlidir. Bu cinayətlərin obyekti qismində məhz insan çıxış edir: qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, əzab vermə, zorlama və s. zorakı soyğun, quldurluq, hədə-qorxu ilə tələb etmə kimi cinayətlərdə isə zorakılıq hər hansı bir məqsədə, əsasən də maddi məqsədə (mülkiyyət əldə etmə və s.) nail olma vasitəsi kimi çıxış edir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, zorakı cinayətlərə zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilən, bilavasitə məqsədi insanı həyatdan məhrum etmək, onun sağlamlığına zərər vurmaq, iradəsinə zidd olaraq onun fiziki azadlığına, bədən toxunulmazlığına (o cümlədən cinsi toxunulmazlığına) zərər vurmaqdan ibarət olan həyat və sağlamlıq əleyhinə törədilən cinayətlər: qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, əzab vermə, zorlama və s. şəklində tərif verə bilərik.

Qeyd edilən tərifdən də göründüyü kimi, zorakılığın fiziki və psixi növləri fərqləndirilir. Cinayət-hüquqi zorakılığın tərkib hissəsi olaraq fiziki zorakılıq yalnız başqa şəxsin bədən toxunulmazlığına, sağlamlığına zərər yetirməyə və ya onun ölümünə səbəb olan zorakı əməlləri əhatə edir. Bu əməllər "fiziki qüvvə tətbiq edilməklə, soyuq və atəşli silahla və ya başqa predmetlə - maye (turşu, qaynar maddə), püskürücü maddə (məsələn, gözün selikli qişasına bibər tozu püskürtülməsi) və s. insanın bədən örtüyünə zərbə, döymə, yara və başqa təsir, həmçinin bədən toxumasına zərər yetirmədən zəhərləmə və ya bihuşedici vasitələr qoxulatma" formasında ola bilər [11, s. 18-19].

Fiziki zorakılıq bədən xəsarəti, fiziki ağrı ilə nəticələnə bilən fiziki gücün istifadəsi kimi müəyyən olunur. Fiziki zorakılıq döymə, vurma, silkələmə, məcburi qidalandırma, məcburi narkotik vasitələri qəbul etdirmə və s. bu kimi hərəkətləri də özündə ehtiva edir [4, s. 13].

Konkret fiziki təsirin intensivlik dərəcəsi zərərçəkmişin sağlamlığına yetirilmiş zərərin ağırlığında ifadə edilən kriteriyalarla təyin edilir. Sağlamlığa dəyən zərərin ağırlığı aşağıdakı tibbi kriteriyalarla müəyyən edilir:

Təsnifləşdirici əlamətlər: sağlamlığa zərər vurmanın insan həyatı üçün təhlükəliliyi; sağlamlığın pozulma müddəti; ümumi əmək qabiliyyətinin itirilməsi; hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsi, görmə, eşitmə, nitq qabiliyyətinin itirilməsi; psixi pozğunluq; peşəkar əmək qabiliyyətinin tam itirilməsi; hamiləliyin pozulması; sifətin silinməz dərəcədə eybəcərləşdirilməsi; şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsi.

Fiziki zorakılığın növ müxtəlifliyi qismində məhkəmə təcrübəsi zərərçəkmişin orqanizminə həyat və sağlamlıq üçün təhlükəli olan "güclü təsiredici, zəhərli və ya bihuşedici vasitələr yeridilməklə" onun köməksiz vəziyyətə gətirilməsini də nəzərdə tutur [9].

Vətəndaşa psixi təsir göstərilməsi onun qorxudulması, fiziki zorakılıq tətbiq edilməsi hədəsi ilə ifadə olunur. Lakin, L.D.Qauxman qeyd edir ki, hər cür hədələmə zorakılıq sayılmır. Hədələmənin psixi zorakılıq sayılması üçün fiziki qüvvə tətbiq etməklə hədələmə, təhlükənin mövcudluğu, həmçinin həyata keçirilmə reallığı kimi əlamətlərin məcmusunun olması zəruridir [11, s. 15].

Son dövrlərdə hüquq ədəbiyyatlarında araşdırılan mövzuya dair fərqli görüşlərlə də qarşılaşırıq. Xüsusən, psixi zorakılıq anlayışına fiziki qüvvə tətbiq etmə hədəsi ilə yanaşı kodlaşdırma, enerji təsiri, hipnozla insanın iradəsinə birbaşa təsirin də daxil edilməsi təklif olunur [14].

Zorakı cinayətkarlıq dedikdə ağla ilk növbədə məhz qadınlara qarşı törədilən cinayətlər gəlir. Bir sıra hallarda, xüsusən qadınlara qarşı törədilərkən bu əməllər zorakılıqla müşaiyət edilir.

Qadınlara qarşı cinayətkar zorakılıq olduqca fərqli şəkildədir və ayrı-ayrı ölkələrdə tarixi, siyasi, iqtisadi, sosial və mədəni şərtlərindən asılı olan öz xüsusiyyətləri vardır. Qadınlar isə

reproduktiv funksiyasına görə hər zaman və hər yerdə ikinci və marjinal xarakterli sosial istehsal sistemə sıxışdırılmışlar. Ailə-məişət zəmini öz nisbi qapalılığı, konservativliyi və muxtariyyəti ilə maddi istehsala nisbətdə daha zəif inkişaf etmişdir; bu da nəticə etibarı ilə cinsi bərabərsizlik hallarının yaranmasına səbəb olmuşdur [16, s.208-209].

İctimai və özəl həyatın müxtəlif sahələrində qadınlara qarşı cinayətkar zorakılıq hallarının araşdırılması 1970-ci illərdə kriminologiyanın yeni bir sahəsinin – kriminofamilistikanın, yəni ailə münasibətləri kriminologiyasının yaranması ilə nəticələnmişdir.

R.Mirzəzadə də zorakılıq anlayışına sırf qadın zorakılığı aspektindən yanaşaraq onu üç kateqoriyaya bölür:

– ailədə zorakılıq, məişət zorakılığı, ənənəvi praktika

– cəmiyyətdə zorakılıq: zorakılıq və seksual qəsd, seksual təngə gətirmə; mühacir işçi qadınlara qarşı zorakılıq, pornoqrafiya, faişəlik;

– dövlət tərəfindən və ya onun təhriki ilə edilən zorakılıq:

– azadlıqdan məhrum etmə yerlərində; dövlət agentlərinin dustaq saxladıqları qadınlara qarşı zorakılıq;

– silahlı münaqişələrdə: düşünülmüş siyasət (etnik təmizləmə) kimi və ya hərbi əməliyyatlar üzündən qeyri-stabillik nəticəsində silahlı münaqişələr zamanı – zorlama, seksual və işgəncə də daxil olmaqla qadınlara qarşı zorakılıq;

– qaçqın və köçkün qadınlar: qaçqın və ölkə daxilinə köçkün kimi daha zəif olduğundan qadınlara qarşı törədilən zorakılıq.

Onun fikrincə, qadınlara qarşı zorakılıq halları içərisində gender zorakılığı xüsusi yer tutur. Gender zorakılığı mədəni, siyasi, iqtisadi, sosial münasibətlərdən yaranan vəziyyətləri özünə daxil edir, lakin bunlarla məhdudlaşmır. Dominant tərəf cinsindən asılı olmayaraq gender zorakılığına məruz qala bilər. Buraya hücum etmə, döyülmə, hədələmə, təzyiq, təhqir, təhdid, zor, güc, sosial izolyasiya və s. hallar aid olunub, bütün hallarda diskriminasiyaya aid edilir.

Gender zorakılığı əsasən özünü aşağıdakı formalarda təzahür etdirir:

seksual zorakılıq – bu cinsi davranış olub, istənilən zorakılıq aktını (cinsi orqanlara qarşı, qeyri heyvani yollarla seksual cinayət və s.), zorlama, müxtəlif növ təhqir və təhdidlə alçaltmanı özündə ehtiva edir;

məişət zorakılığı – bundan daha çox əziyyət çəkən qadınlardır. Bu zorakılıq özü də fiziki, psixoloji və mənəvi olmaqla üç əsas tipdə özünü göstərir [8, s. 69-70].

Qadınlara qarşı zorakılıq, əsasən, məcburi birgə yaşama və fahişəlik, zorlama, məişət zorakılığı və alkoqolla qətl, narkomaniya, psixoloji sadizm kimi formalarda ifadə olunur. Digər səciyyəvi cəhət bu cinayət növünün gecikmə müddətinin yüksək olmasıdır. Zərərçəkmiş qadınlar çox vaxt nə tibb, nə də hüquq-mühafizə orqanlarına müraciət etmədikləri üçün rəsmi statistika cinayətlərin obyektiv mənzərəsini əks etdirmir.

Azərbaycan Respublikası 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının“Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyasına (CEDAW) qoşulduqdan sonra qüvvədə olan normativ hüquqi aktlara və formalaşmış təcrübəyə qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində dəyişikliklər edilmişdir. Birləşmiş Millətlər Təşkilatının “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyası”nın Fakultativ Protokolu Azərbaycan Respublikasının 2001-ci il 16 fevral tarixli 77-IIQ Qanunu ilə təsdiq edildikdən sonra isə dövlət qadınların hüquqlarının pozulmasının qarşısının alınması, qadınlara öz hüquqlarından tam istifadə

etmək imkanı verən bir mühitin yaradılmasına çalışmışdır. Qadınların cəmiyyətdə hərtərəfli rol oynaması, onların verdiyi töhfələrin qiymətləndirilməsi, öz yaşam tərzləri ilə bağlı seçimlər etməsi və zorakılıq qorxusundan azad yaşaya bilməsinə imkan yaradan cəmiyyət və iqtisadi mühiti yaratmaq öhdəliyinin əsas hissəsi kimi, dövlət qadınların irəli çəkilməsini davam etdirir.

Azərbaycan Respublikası "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanı qadınların irəli çəkilməsi və gender bərabərliyi baxımından mühüm sənəd hesab edir [3].

Məişət zorakılığı xüsusən son dövrlər aktuallıq kəsb edən problemlərdən biri olduğu üçün onun üzərində dayanmağı məqsədəuyğun hesab edirik. Müasir dünyada məişət zorakılığı problemi insan hüquqlarına və bütövlükdə, insan hüquqlarının təminatına böyük təhlükə yaradır. Məişət zorakılığı bütün sivilizasiyalarda mövcud olmuş və insanın nə sosial vəziyyəti nə də ki, cinsi, irqi ilə bağlı deyildir.

Respublikamızda "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1058-IIIQ nömrəli Qanununun [7] qəbulundan sonra bu sahəyə maraq xeyrli artmışdır. Qanun, məişət zorakılığını – yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması kimi qiymətləndirir. Bu tərif daha geniş olmaqla məişət zorakılığını sırf intim münasibətlər ilə əlaqələndirmir. Lakin, məişət zorakılığının anlayışının vacib elementləri kimi birgə yaşayan subyektlərin yaxın qohumluq əlaqəsi və ya birgə yaşadıqları dövrdə yaranan asılılıq münasibətləri göstərilir. Qanunun şərhindən belə qənaətə gəlmək olur ki, əməlin məişət zorakılığı kimi tövsif edilməsi üçün həm yaxın qohumluq əlaqəsi, həm də birgə yaşayış aspektləri paralel şəkildə mövcud olmalıdır. Birgə yaşayış faktı isə həm cari zamanda, ya da keçmişdə ola bilər.

Fikrimizcə, adıçəkilən Qanunda istifadə edilən tərifin yazılışı məişət zorakılığı qurbanlarının sayını süni şəkildə məhdudlaşdırır və gerçəkliyi əks etdirmir. Birgə yaşayış faktı mütləq qaydada yaxın qohumluq münasibətlərinin mövcudluğu ilə şərtlənməyə də bilər. Qanunun 1.0.2-ci maddəsində də qeyd edilir ki, məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxsdir. Nəzərə almaq lazımdır ki, Mənzil qanunvericiliyinə əsasən (30.1-ci maddə) yaşayış sahəsi mülkiyyətçisinin ailə üzvlərinə həmin mülkiyyətçi ilə ona məxsus olan yaşayış sahəsində birlikdə yaşayan mülkiyyətçinin arvadı (əri), habelə onun uşaqları və valideynləri aid edilir. Digər qohumlar, mülkiyyətçinin himayəsində olan əmək qabiliyyəti olmayanlar mülkiyyətçi tərəfindən ailə üzvləri kimi yaşayış sahəsinə köçürüldükdə, onun ailə üzvləri hesab edilə bilərlər [2]. Xüsusən Azərbaycan reallığında ailə münasibətlərinə təsir göstərən qohumların dairəsi daha geniş ola bilər. Bu baxımdan məişət zorakılığı iştirakçılarının dairəsi qohumlarla məhdudlaşmaya da bilər.

Məişət zorakılığının qurbanlarının böyük həcmini qadınlar, uşaqlar, yaşlılar- zəif və qorumasız təbəqə təşkil edir. Lakin, qadınlarla yanaşı kişilər də məişət zorakılığının qurbanı ola bilərlər və qanunvericilik bunu istisna etmir. Belə ki, Qanunda da sadalanan şəxslər arasında arvaddan başqa ərin də adı çəkilir. Bəzən utanc hissi, bəzən isə hadisənin məişət zorakılığı kimi nəzərdən keçirilməməsi belə halların latent qalması ilə nəticələnir. Riçard L.Devis qeyd edir, Amerika Birləşmiş Ştatlarında hər il təqribən 830,000 kişi məişət zorakılığının qurbanı olur [20, s. 171-177]. Böyük Britaniyada 25 % qadın və 59% kişi onlara qarşı törədilən kobud rəftarı rəsmi

tərifə uyğun olaraq məişət zorakılığı kimi qəbul etmirlər [17, s. 41; 20, s. 29]. Bu baxımdan da məişət zorakılığını tək qadınların problemi hesab etmək düzgün deyil.

Lakin təəssüflər olsun ki, nə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, nə də ki, digər qanunvericilik aktları qadınlara qarşı zorakılığa tərfi vermir.

Qadınlara qarşı zorakılığın bu aspektdə təhlili onun bütün növlərini cinayətkar zorakılığa aid etməyə yol vermir. Qadınlara qarşı cinayətkar zorakılığın məzmunu onun ictimai təhlükəlilik dərəcəsi və xarakteri, hüquqazidd olması, qəsdən törədilməsi, sosial-cinsi əlamətə görə və şəxsin iradəsinə zidd olaraq fiziki ağrı yetirməklə, sağlamlığa müxtəlif ağırlıq dərəcəli zərər vurmaqla və ya ölümlə törədilməsi ilə müəyyən edilir.

Qanunvericilikdən fərqli olaraq respublikamızın da ratifikasiya etdiyi "Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında" 1993-cü il BMT-in Baş Assambleyası tərəfindən qəbul edilmiş Bəyannaməsində "qadınlara münasibətdə zorakılıq" termini açıqlanır və Bəyannamənin birinci maddəsində qeyd olunur ki, cinsi əlamətlər əsasında həyata keçirilən, qadınlara fiziki, cinsi və tam psixoloji ziyan və əzab verən və ya verəcək, həmçinin belə aktları həyata keçirmək hədəsilə, istər ictimai, istərsə də şəxsi həyatda məcburən və ya özbaşına azadlıqdan məhrum etmə ilə bağlı istənilən zorakılıq aktı qadınlara münasibətdə zorakılıq aktıdır [18].

Həmçinin BMT Baş Məclisinin Vyana Bəyannaməsində və onun fəaliyyət proqramında birmənalı şəkildə göstərilirki, silahlı münaqişə şəraitində qadınların insan hüquqlarının pozulması beynəlxalq hüququn əsas prinsiplərinin pozulması kimi dəyərləndirilməli və belə əməllərə görə ən ciddi tədbirlər görülməlidir. Bu mövqe BMT Baş Məclisinin "Qadınlara münasibətdə zorakılığın aradan qaldırılması haqqında Bəyannamə"sində öz əksini tapmışdır.

Qadınlar üzrə IV Ümumdünya Konfransının Hesabatında (4-15 sentyabr 1995-ci il) qadınlara qarşı zorakılığın məzmunu bu şəkildə ifadə olunmuşdur: "Qadına fiziki, cinsi və ya psixoloji zərərlə və ya əzab ilə nəticələnən və ya nəticələnməsi ehtimal edilən cinsi mənsubiyyətinə görə hər hansı zorakılıq hərəkəti, o cümlədən, ictimai və ya şəxsi həyatda baş verməsindən asılı olmayaraq bu cür hərəkətlərin törədilməsi təhlükəsi, zor gücünə və ya ixtiyari olaraq azadlıqdan məhrum etmə. Bu tərif əsasında, qadınlara qarşı zorakılıq aşağıdakıları özündə birləşdirir:

– ailədə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən, döyülmə, ailədə qadın cinsli uşaqların cinsi təhqir olunması, cehizlə əlaqədar zorakılıq, ər-arvad zorlaması, qadın cinsiyyət üzvlərinə xəsarət yetirilməsi və qadın üçün zərərli olan digər ənənəvi əməllər, qeyri-nikah zorakılığı və istismar xarakterli zorakılıq;

– ümumi cəmiyyətdə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən, zorlama, cinsi təhqirə məruz qalma, iş yerində, tədris müəssisələrində və digər yerlərdə cinsi hücumlara və hədə-qorxuya məruz qoyma, qadın alveri və məcburi fahişəliyə sövq etmə;

– baş verdiyi yerdən asılı olmayaraq dövlət tərəfindən törədilən və ya yol verilən fiziki, cinsi və psixoloji zorakılıq" [19, s.48-49].

Qadınlara qarşı zorakılıq hallarının miqyası olduqca rəngarəngdir. Bizim tədqiqatımızın obyekti olmayan ailədə zorakılıq hallarından başlayaraq həbsxanada və islah əmək müəssisələrində zorakılıq hallarının aradan qaldırılması baxımından qeyd etdiyimiz Bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Ailədə qadın hüquqlarının gözlənilməsi bir qayda olaraq şəxsi həyatın toxunulmazlığı prinsipinə uyğun olaraq hüquqi tənzimetmədən kənarda qalır. Beynəlxalq hüquq müdafiə qurumlarının da diqqət mərkəzində adətən "ictimai sfera" – mülki və siyasi hüquqlar (həbsxanada işgəncədən azad olmaq, məhkəməsiz ölümə məhkumetmə və s.) dayanır, təəssüf ki, həbsxanada

qadınların zorlamaya məruz qalması beynəlxalq hüquqi tənzimetmənin obyektində deyildir. Bu da onunla bağlıdır ki, əksər hallarda ənənəvi olaraq kişilər vətəndaş kimi qəbul edilir, qadınlar isə «məişət sferasına» aid edilirdi [10, s. 15]. Eyni zamanda Bəyannamənin əhəmiyyəti ondadır ki, ilkin olaraq qadınlara münasibətdə zorakılığın bütün formalarını aradan qaldırmaq istiqamətində qadınlar üçün hüquq müəyyən etməklə dövlətlərlə BMT qurumları üçün konkret öhdəliklər formalaşdırılır [15, s. 101].

Ümumiyyələ, 1995-ci ildə dünyanın 189 ölkəsinin iştirakı ilə keçirilmiş IV Ümumdünya Qadın Konfransında Pekin Bəyyannaməsi və Fəaliyyət Platforması qəbul edilmişdir. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını, sülhə və gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdir.

İnsan hüquqlarının müdafiəsi sahəsində aparıcı rolu öz üzərinə götürdüyünü nəzərə alaraq, Avropa Şurası Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyanı ("İstanbul Konvensiyası" adı ilə tanınır) qəbul edib. İstanbul Konvensiyası insan hüquqlarının pozuntusu olan qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə aparılması sahəsində geniş ictimaiyyət tərəfindən ən əhatəli hüquqi sənəd kimi tanınır. 2011-ci ildə imzalanma üçün açıq elan edildiyi vaxtdan bəri o, bütün səviyyələrdə əhəmiyyətli dərəcədə dəstək qazandı: milli, regional və yerli hökumətlər, ictimaiyyət, parlamentlər, digər milli, regional və beynəlxalq insan hüquqları təşkilatları, vətəndaş cəmiyyəti təşkilatları, media və akademik dairələr tərəfindən dəstəkləndi. O, qəbul edildiyi tarixdən üç il sonra – 2014-cü ildə qüvvəyə mindi ki, bu da üzv dövlətlərin gender əsaslı zorakılığa qarşı mübarizə səylərində rəhbər tuta biləcəkləri məcburi hüquqi qüvvəyə malik müqaviləyə ehtiyacları olduğunu və Konvensiyada təsbit olunmuş prinsip və dəyərlərə siyasi sadiqliklərini nümayiş etdirdi.

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı məlumatların toplanmasının və tədqiqatlar aparılmasının təmin edilməsi – İstanbul Konvensiyasının 11-ci maddəsinə əsasən İstanbul Konvensiyasında nəzərdə tutulan zorakılıq formalarının anlayışı ilə bağlı qeydləri nəzərdən keçirək: Konvensiyanın əhatə etdiyi bütün zorakılıq formaları haqqında məlumatlar toplanmalıdır. Bu zorakılıq formaları Konvensiyanın mətnində iki yerdə müəyyən edilmişdir: birincisi, 3-cü maddədə qadınlara qarşı zorakılıq və məişət zorakılığının anlayışı verilmiş; ikincisi, bu zorakılığın doqquz forması substantiv huquq normalarının yer aldığı 33-40-cı maddələrdə ayrıca muəyyən edilmişdir:

3.a: "Qadınlara qarşı zorakılıq" insan huquqlarının pozuntusu və qadınlara qarşı ayrı-seckiliyin forması hesab edilir və ictimai və ya şəxsi həyatda baş verməsindən asılı olmayaraq qadınlara fiziki, cinsi, psixoloji və ya iqtisadi zərər, yaxud iztirab yetirən və ya yetirə bilən gender əsaslı butun zorakılıq əməlləri, o cumlədən bu əməllərin torədiləcəyi ilə hədələmə, habelə məcbur etmə və ya əsassız şəkildə azadlıqdan məhrum etmə kimi başa duşulur;

3.b: "Məişət zorakılığı" dedikdə təqsirkarın qurbanla eyni yaşayış yerini paylaşdığından və ya əvvəllər paylaşmış olmasından asılı olmayaraq, ailə daxilində və ya məişətdə, yaxud kecmiş və ya hazırkı ər-arvad və ya partnyorlar arasında baş verən butun fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq əməlləri başa duşulur;

3.d: "Qadınlara qarşı gender əsaslı zorakılıq" dedikdə qadın olduğu ucun ona qarşı yonələn və ya qadınların qeyri-mutənasib olaraq zərər cəkdikləri zorakılıq başa duşulur.

33-40-cı maddələrdə əks olunmuş zorakılığın doqquz formasından səkkizinin: "psixoloji zorakılıq"; "davamlı təqib"; "fiziki zorakılıq"; "zorlama da daxil olmaqla, cinsi zorakılıq";

“məcburi nikah”; “qadın sunnəti”; “məcburi abort və məcburi sterilizasiya”nın “qəsdən torədilmiş əməl” olduqları təqdirdə kriminallaşdırılmasının, digər bir forması olan “seksual qısnama”ya isə cinayət, yaxud digər huquqi sanksiyanın tətbiqinin zəruriliyi muəyyən edilir [6].

Qadınlara qarşı zorakılığın mənbəyi ilə bağlı fərqli fikirlər mövcuddur. Sosial öyrənmə nəzəriyyəsinə əsasən, kişilərin öz cinsi partnyorlarını zorakılığa məruz qoymalarının əsas səbəbi onların bu cür davranışı uşaq ikən öz ailələrində müşahidə etməsindən ibarətdir. Psixopatoloji nəzəriyyə isə məişət zorakılığını psixi problemlərlə əlaqələndirməyə çalışır. Lakin bu nəzəriyyə feminist təşkilatların qınaq obyektinə çevrilib. Belə ki, bu nəzəriyyə cinayətkarlara haqq qazandırır. Zorakılıq bir insanın öz məqsədlərinə çatması üçün digər fərd və ya fərdlərin iradəsinə zidd onları hansısa hərəkəti etməyə və ya etməməyə məcbur etmək deməkdir [5, s. 224-228].

Yuxarıda qeyd edilənləri yekunlaşdıraraq qadınlara qarşı törədilən zorakı cinayətlərə qadınların həyat və sağlamlığı əleyhinə qəsdən törədilən, onlara fiziki ağrı yetirən, fiziki və psixi sağlamlığına zərər vuran və ya bu cür zərər vurma hədəsi daşıyan, həmçinin şəxsin ləyaqətini alçaldan və ya onun sosial rolunun həyata keçirilməsinə mane olan cinayətkar davranış kimi ifadə edə bilərik.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. -Bakı: Hüquq Yayın Evi, 2020. - 772 s.
2. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi [Elektron resurs].URL: https://www.e-qanun.az
3. BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyinin bütün formalarının ləğv olunması haqqında” [Elektron resurs]. URL: http://www.scfwca,gov.az
4. Ələsgərova G.R. Beynəlxalq və dövlətdaxili hüquqda məişət zorakılığına qarşı mübarizə problemi: hüq.üzrə fəl.dok. diss avtoreferatı. Bakı, 2016, 30 s.
5. Ələsgərova G.R. Məişət zorakiliğinin aid edildiyi subyektlərin müəyyən olunmasi və onun tarixi aspektləri / Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. № 59, Bakı , 2013, s. 224-228
6. İstanbul Konvensiyası kimi tanınan Qadınlara qarşı zorakılıq və məişət zorakılığı-nın qarşısının alınması və ona qarşı mübarizə haqqında [Elektron resurs]. URL: https://www.coe.int
7. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu [Elektron resurs]. URL: http://e-qanun.az/framework/20131
8. Mirzəzadə R. Qadın hüquqları qanunlarda / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 15-ci buraxılış. Bakı, 2006, s. 69-70
9. Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli Qərarı [Elektron resurs]. URL: http://supremecourt.gov.az/post/view/159
10. Бандг Ш., Фрост С. Права женщин-права человека: Ст. Директора Центра глоб. жен. лидерства (США) и асп. Рамчер.ун-та. Независимая газета, 1998, 13 ноября, №14, с.15
11. Гаухман Л.Д. Насилие как средство совершения преступления. - М., 1974
12. Гаухман Л.Д. Проблемы уголовно-правовой борьбы с насильственными пре-ступлениями в СССР. - Саратов, 1981

13. Долгова А.И. Методика изучения территориальных различий преступлений и их причин: Учеб. пособие. М.: НОРМА, 1989, 346 с.

14. Левертова Р.А. Ответственность за психическое насилие по советскому уголовному праву: Автореф. дис… докт. юрид. наук. Омск, 1978

15. Нугаева Н.Г.Международная и внутригосударственная защита прав женщин. - Казань, 2003

16. Предупреждение семейно-бытовых правонарушений / отв. ред. Ф.А. Лопушанский. - М., 1989

17. Andrew Fagan. The Atlas of Human Rights. Myriad Editions. First Edition, p.41-42, 2010. 4.

18. Declaration on the Elimination of Violence against Women Proclaimed by General Assembly resolution 48/104 of 20 December 1993. The General Assembly // https://www.un.org

19. Report of the Fourth World Conference on Women. Beijing, 4-15 September 1995. United Nations – New York, 1996, 218 p.

20. Richard L. Davis. Domestic violence: intervention, prevention, policies and solutions. Taylor & Francis Group, LLC, p.171-177, 200

**Гошгарова Н.Р.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.23-33**
**УДК: 34: 343.2/.7**

## Понятие насильственных преступлений против жизни и здоровья женщин

**Аннотация:** Анализируется понятие насильственных преступлений против жизни и здоровья женщин. Основу исследования составляет преступления, совершенные против жизни и здоровья женщин, путем применения физических пыток, причинения вреда их физическому и психическому здоровью или угрозы причинения такого вреда. Также в статье преступления, унижающие достоинство человека или препятствующие реализации его социальной роли, определяются автором как насильственные преступления против жизни и здоровья женщины.

**Ключевые слова:** насильственные преступления; насилие в отношении женщин; мотивация преступлений против женщин; гендерное насилие; преступления против личности; преступления против жизни и здоровья; Венская декларация; Пекинская декларация; «Стамбульская конвенция».

## Библиография

1. Уголовный кодекс Азербайджанской Республики. - Баку: Hüquq Yayin Evi , 2020. - 772 с. (на азерб. яз.).

♦ **Гошгарова Нармин Рабит кызы -** заведующая библиотекой Главного законодательного управления Министерства юстиции Азербайджанской Республики, младший советник юстиции (Азербайджан). E-mail: narmin.qoshqarova@justice.gov.az

2. Жилищный кодекс Азербайджанской Республики [Электронный ресурс]. URL: https://www.e-qanun.az (на азерб. яз.).

3. Конвенция ООН «О ликвидации всех форм дискриминации в отношении женщин» [Электронный ресурс]. URL: http://www.scfwca,gov.az (на азерб. яз.).

4. Алескерова Г.Р. Проблема противодействия бытовому насилию в международном и внутригосударственном праве: нормативно-правовой акт: автореф. дис... канд. юрид. наук. Баку, 2016. 30 с. (на азерб. яз.).

5. Алескерова Г.Р. Выявление субъектов, к которым относят насилие в семье и его исторические аспекты / Актуальные вопросы криминалистики, криминалистики и криминалистики. Сборник научных трудов. № 59, Баку, 2013, с. 224-228 (на азерб. яз.).

6. О предупреждении и борьбе с насилием в отношении женщин и насилием в семье, также известной как Стамбульская конвенция [Электронный ресурс]. URL: https://www.coe.int

7. Закон Азербайджанской Республики «О предупреждении бытового насилия» [Электронный ресурс]. URL: http://e-qanun.az/framework/20131 (на азерб. яз.).

8. Мирзазаде Р. Права женщин в законах / Актуальные проблемы государства и правотворчества в Азербайджанской Республике в переходный период. Сборник научных статей. 15-е изд. - Баку, 2006, с. 69-70 (на азерб. яз.).

9. Постановление Пленума Верховного Суда Азербайджанской Республики от 3 марта 2005 года о судебной практике по делам о краже, грабеже и разбое [Электронный ресурс].URL: http://supremecourt.gov.az/post/view/159 (на азерб. яз.).

10. Бандг Ш., Фрост С. Права женщин-права человека: Ст. Директора Центра глоб. жен. лидерства (США) и асп. Рамчер.ун-та. Независимая газета, 1998, 13 ноября, №14, с.15

11. Гаухман Л.Д. Насилие как средство совершения преступления. - М., 1974

12. Гаухман Л.Д. Проблемы уголовно-правовой борьбы с насильственными преступлениями в СССР. - Саратов, 1981

13. Долгова А.И. Методика изучения территориальных различий преступлений и их причин: Учеб. пособие. М.: НОРМА, 1989, 346 с.

14. Левертова Р.А. Ответственность за психическое насилие по советскому уголовному праву: Автореф. дис… докт. юрид. наук. Омск, 1978

15. Нугаева Н.Г.Международная и внутригосударственная защита прав женщин. - Казань, 2003

16. Предупреждение семейно-бытовых правонарушений / отв. ред. Ф.А. Лопушанский. - М., 1989

17. Andrew Fagan. The Atlas of Human Rights. Myriad Editions. First Edition, p.41-42, 2010. 4.

18. Declaration on the Elimination of Violence against Women Proclaimed by General Assembly resolution 48/104 of 20 December 1993. The General Assembly // https://www.un.org

19. Report of the Fourth World Conference on Women. Beijing, 4-15 September 1995. United Nations – New York, 1996, 218 p.

20. Richard L. Davis. Domestic violence: intervention, prevention, policies and solutions. Taylor & Francis Group, LLC, p.171-177, 200